UOT 479 (94)

*T.İ.Qasımova*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: turkan.ilqar1990@mail.ru*

# CƏNUBİ QAFQAZ GEOSİYASİ, GEOİQTİSADİ ASPEKTLƏR KONTEKSTİNDƏ

*Cənubi Qafqazın geosiyasi rolu istər potensialına, istərsə də geostrateji mövqeyinə görə səciyyəvi əhəmiyyət kəsb edir. Xəzər və Qara dənizin, Rusiya, İran və Türkiyə arasında yerləşməsi Cənubi Qafqaz regionunu Şərq-Qərb və Şimal-Cənub dəhlizinə çevirir. Bu amil Xəzər regionunun, xüsusilə də Cənubi Qafqazın dünyanın geosiyasi xəritəsində mühüm mövqeyə malik olduğunu göstərir. Ümümiyyətlə bu bölgə bütün növ qiymətli metal və neft-qaz yataqları ilə zəngindir. Dünyanın enerjiyə olan ehtiyacı yüksələn xətlə dəyişdiyi zaman karbohidrogen ehtiyatları ilə zəngin bu bölgənin əhəmiyyəti daha da artır. Belə ki, Qlobal iqtisadi layihələrdə iştirak sıradan biri kimi deyil, əsas aparıcı dövlətlərdən biri kimi Azərbaycana aid edilə bilər. Çünki Regionun karbohidrogen ehtiyatlarının işlənməsinə aid qlobal layihələr, əlbəttə, Azərbaycansız təsəvvür edilə bilməz. Azərbaycanın əvəzolunmazlığı təkcə istehsalçı olması ilə deyil, həm də tranzit ölkə kimi öz məhsullarını və Orta Asiya respublikalarının məhsullarını Avropaya çıxaran enerji, tranzit dəhlizi olması ilə bağlıdır. Bunu Qərb dövlətləri də anlayır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan artıq böyük bir regional amildir: sabitlik, təhlükəsizlik və inkişaf amilidir.*

*Açar sözlər:* Cənubi Qafqaz, geosiyasət, Rusiya, İran və Türkiyə

*Giriş*

Cənubi Qafqaz regionunun geosiyasi mövqeyi həm onun potensialına, həm də coğrafi mövqeyinə görə çox əhəmiyyətlidir. Başqa sözlə desək, Cənubi Qafqaz regionu "dünyanın dördyolu" rolunu oynayır. Cənubi Qafqazın Şimal ilə Cənub, Şərq ilə Qərb arasında dəhliz rolunda çıxış etməsi bunu söyləməyə əsas verir. Belə ki, Cənubi Qafqaz iki müxtəlif qitəni-Avropa və Asiyanı, iki müxtəlif qütbü birləşdirməklə yanaşı, iki müxtəlif sivilizasiyanı da bir-birinə qovuşduran bir regiondur. Cənubi Qafqaz regionunda yerləşən dövlətlərin yürütdükləri xarici siyasətdə başlıca məqsəd qonşu ölkələrlə mehriban qonşuluq və qarşılıqlı fayda kəsb edən münasibətlərin inkişaf etdirilməsi, regionda təhlükəsizliyin və sabitliyin gücləndirilməsi, bununla bərabər beynəlxalq təşkilatlara inteqrasiya təşkil edir. Bununla yanaşı dünyanın aparıcı dövlətləri də Cənubi Qafqaz kimi mühüm geo-strateji əhəmiyyətli bir regionda öz siyasi təsirini artırmağa çalışır.

XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutmuşdur. Bu faktor bölgənin ümumi geosiyasi və geoiqtisadi ab-havası, dünya ölkələrinin bölgəyə can atması və s. transmilli proseslərlə yanaşı, həm də Xəzərətrafı ölkələrin bir-biri ilə regional münasibətlərinə, bütövlükdə xarici siyasətlərinə, daxili ictimai-siyasi vəziyyətinə və regional dövlətlərarası münasibətlərin xarakterinə də ciddi təsir göstərmişdir.

Bildiyimiz kimi bu bölgə bütün növ qiymətli metal və neft-qaz yataqları ilə zəngindir. Məhz bu fakt vacib amillərdən biri kimi Cənubi Qafqazı hər zaman böyük dövlətlərin maraq obyektinə çevirmişdir. Regionda mövcud olan hər üç dövlətin təsir imkanlarını əldə saxlamaq və ya təsir imkanı qazanmaq üçün bölgəyə giriş qapısı məhz Azərbaycandır. Bununla

Azərbaycanın regionda qlobal mahiyyətli siyasətin həyata keçirilməsində hansı geosiyasi əhəmiyyətə malik olması bir daha göz önündədir. Düzgün xarici siyasət yürüdülməsi nəticəsində həm Azərbaycanın bölgədə aparıcı dövlət olması faktı reallığa çevrilir, həm də region, Avropa və Asiya qitələri üçün mühüm əhəmiyyət kəsb edən nəqliyyat infrastrukturunun, yeni enerji layihələrin təməli qoyulur. Azərbaycanın Avrasiyanın enerji xəritəsini zənginləşdirəcək layihələrə imza atması, Avropanın enerji təhlükəsizliyinə strateji töhfələr verməsi həm bu qitənin təmsilçiləri, həm də bütövlükdə Qərb tərəfindən yüksək qiymətləndirilir. Qeyd etmək olar ki, əsas etibarilə, 2000-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın böyük qaz ehtiyatlarının hasilatı və Avropa istehlakçılarına çatdırılması ilə bağlı müxtəlif təşəbbüs və layihələr irəli sürülüb, lakin bunların praktiki nəticəsi olmayıb. Azərbaycan bu sahədə də liderliyi öz əlinə götürüb və "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə başlanıb. 2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında "Cənub Qaz Dəhlizi" ilə bağlı birgə bəyannamə, 2012-ci ildə Türkiyə ilə TANAP-a dair saziş imzalanıb, 2013-cü ildə TAP layihəsi əsas ixrac marşrutu kimi seçilib, 2013-cü il dekabrın 17-də "Şahdəniz-2" layihəsinə dair yekun investisiya qərarı qəbul edilib və 2014-cü ildə "Cənub Qaz Dəhlizi"nin təməlqoyma mərasimi keçirilib. 2015-ci il fevralın 12-də isə, Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü keçirilib və "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunub, mətbuat üçün bəyanat qəbul edilib [11, s. 136].

*Cənubi Qafqazda geosiyasi maraqların tarixinə ekskurs.* Məlumdur ki, SSRİ-nin dağılması Cənubi Qafqazda yeni geosiyasi mübarizənin başlamasına səbəb oldu. Regionda geosiyasi maraqları olan dövlətləri bu maraqların və regionla əlaqələrinin yaranma tarixinə görə iki qrupa bölmək olar:

1. "Köhnə" aktorlar;
2. "Yeni" aktorlar.

"Köhnə" aktorlar dedikdə, Cənubi Qafqaz regionu və eləcə də Cənubi Qafqaz ölkələri ilə qədim tarixi əlaqələrə malik olan dövlətlər nəzərdə tutulur ki, bu kateqoriyaya daxil olan dövlətlər, adətən, sözü gedən regiona qonşu olan dövlətlərdir. Belə ki, "köhnə" aktorların Cənubi Qafqaza dair geosiyasi maraqları haqqında danışarkən Rusiya, İran və Türkiyənin regiona münasibətlərindən bəhs olunur.

"Yeni" aktorlara isə SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz regionu ilə bağlı yeni geosiyasi maraqları yaranmış və bu məqsədə çatmaq üçün yeni geosiyasi istiqamət götürmüş dövlətlər daxildir ki, bu dövlətlər içərisindən də daha çox ABŞ, aparıcı Avropa dövlətləri, Asiya-Sakit okean regionu ölkələri və Yaxın Şərq ölkələri Cənubi Qafqaz regionunda geosiyasi mübarizədə həyata keçirdiyi aktiv siyasəti ilə fərqlənir. SSRİ dağıldıqdan sonra "köhnə" aktorların Cənubi Qafqaz region ilə bağlı geosiyasəti yeni bir mərhələyə daxil oldu [13, s. 17]. Bununla paralel şəkildə Cənubi Qafqaz regionunda geosiyasi maraqları olan "yeni" aktorların meydana çıxması prosesi başladı. Bu isə region uğrunda yeni geosiyasi mübarizənin başlaması demək idi.

Qafqazın geosiyasi vəziyyəti, tarixi, milli və etnik tərkibi, həmçinin sovet mirası və digər səbəblər üzündən ona çox önəmli bir region kimi baxılır. Sovet İttifaqının dağılmasından sonra isə bu region böhran şəraitində yaşayır. Təhlükəsizlik regiona qonşu ölkələrin və böyük dövlətlərin əsas qayğısı olub və olmaqda davam edir. Buna nəzərən regionun təhlükəsizliyində maraqlı olan tərəflər bir sıra təhlükəsizlik modellərini irəli sürüblər:

Qafqaz modeli: Cənubi Qafqazın üç ölkəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq;

Bir tərəfdən üç Cənubi Qafqaz ölkəsi, digər tərəfdən isə Türkiyə və Rusiya arasında regional əməkdaşlıq çərçivəsi kimi Türkiyənin təklif etdiyi "3+2 sxemi";

Azərbaycanın təklifi olan “3+3+2 planı”: üç Cənubi Qafqaz ölkəsi, qonşu dövlətlər (Rusiya, İran və Türkiyə), Avropa və ABŞ arasında əməkdaşlıq;

Rəsmi Moskva Cənubi Qafqazdakı prosesləri tarixi rəqibləri olan İran və Türkiyə, həmçinin yeni rəqibləri olan ABŞ və Aİ-nin iştirakı olmadan həll etmək iddiasında olduğundan regional problemləri “3+1” (3 Cənubi Qafqaz ölkəsi + Rusiya) formulu əsasında həll etməyə çalışır. “Qafqaz dördlüyü” adlandırılan bu format daxilində indiyədək prezidentlər, təhlükəsizlik şurası sədrləri, dini liderlər səviyyəsində müxtəlif görüşlər keçirilmişdir. Bu birlik hələ ki, yalnız məsləhətləşmələr formasında davam edir.

Rəsmi Tehran region ölkələrinə “3+2” formulunu (3 Cənubi Qafqaz respublikası+ Rusiya və İran) təklif edib. Bu sistem təhlükəsizlik və xarici siyasət sahəsində adıçəkilən ölkələrin səylərini birləşdirməsini, birgə əməkdaşlığını nəzərdə tuturdu. “3+2” formulunu təklif etməklə Türkiyəni bu sistemdən kənarda qoymağı düşünən İran yalnız öz tarixi rəqibini deyil, həm də Ankaranın üzvü olduğu NATO-nu və müttəfiqi olduğu ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini gizlətmirdi. Lakin Tehranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Bundan sonra İran rəhbərliyi regional təhlükəsizlik sisteminə yeni formul “3+3” sxemini irəli sürdü. Burada artıq söhbət 3 Cənubi Qafqaz Respublikası+Rusiya, İran, Türkiyə formulundan gedirdi. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun ən güclü müttəfiqi və Tehranın əsrlər boyu regiondakı rəqibi olan Türkiyə ilə də əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi. Lakin bu təşəbbüs də region dövlətlərinin dəstəyini qazanmadı.

Üç Cənubi Qafqaz ölkəsi, Rusiya və İran arasında əməkdaşlığa dair Ermənistanın təklif etdiyi “3+2” fikri. Rəsmi İrəvan ABŞ və Avropa İttifaqının regiondakı proseslərdə iştirakını məqbul saysa da, bu güc mərkəzlərinə regional dövlətlərlə eyni statusun verilməsinin əleyhinədir [8, s.135-136]. Beləliklə, Cənubi Qafqaz SSRİ dağıldıqdan sonra Avrasiya materikində başlamış geosiyasi mübarizənin əsas meydanlarından birinə çevrildi.

Cənubi Qafqaz sərhədlərinin qonşuluğunda yerləşən İran, Rusiya və Türkiyə dövlətləri regiondakı nüfuzlarını artırmağa çalışmaqla yanaşı bəzən təhlükəsizlik məsələsi ilə bağlı narahatlıq hissləri də keçirirlər [8, s. 325]. Bu dövlətlərin bəzən atdıqları qətiyyətli addım regiona hakim kəsilmiş təhdidlərin qarşısının alınmasına yönəlir. İran Qafqazı öz təhlükəsizlik regionu hesab etdiyi üçün bu regionun etnik-milli münaqişələrinə və təhlükəsizlik məsələlərinə laqeyd qala bilməz. Millətçilik məsələsinin qabardılması, uzun illərdən bəri bir yerdə yaşayan etnik azlıqların ayrılmaq üçün göstərdikləri cəhdlər regional təhdid hesab edilə bilər. Milli, dil və dini bağlılıq Türkiyənin Cənubi Qafqazın Azərbaycan kimi müsəlman dövlətləri ilə bağlılığına, Xəzər hövzəsinin enerji ehtiyatlarına əsasən iqtisadi, həmçinin regionda daha üstün rol ifa etmək tələbindən doğan siyasi maraqlar isə Türkiyənin Gürcüstan kimi qeyri-türk və qeyri-müsəlman dövlətləri ilə bağlılığına səbəb olmuşdur [3, s. 56].

*Cənubi Qafqaz regionu və Rusiya.* Cənubi Qafqaz regionu daxili, regional və beynəlxalq səviyyələrdə Rusiya üçün mühüm əhəmiyyət kəsb edir. Coğrafi cəhətdən yaxın olduğu və Cənubi Qafqaz regionunda baş verən dəyişiklilər Rusiya milli təhlükəsizliyinə birbaşa təsir göstərdiyi üçün bu dövlət regional oyunçular sırasındadır.

Bu səbəbdən də Moskva 1990-cı onilliyin əvvəlində başlayaraq Cənubi Qafqaz regionuna yaxın regionlardan biri kimi baxmağa başladı. Şimali Qazqazla Cənubi Qafqaz arasındakı milli və dini bağlılıqları nəzarətdə saxlaması və buna qarşı çıxması (xüsusilə Çeçenistan və Dağıstanda), Gürcüstanda milli etnikləri müdafiə etməsi (Abxaziya və Cənubi Osetiya), Qarabağ problemində Azərbaycan və Türkiyə qarşısında Ermənistanı müdafiə etməsi, SSRİ dövründə qalmış bir çox hərbi bazaları region dövlətlərində saxlaması, iqtisadiyyat sahəsində region dövlətləri ilə əlaqələrini davam etdirməsi Cənubi Qafqaz regionuna təsir göstərən regional bir güc kimi Rusiyanın fəal rolundan xəbər verir. Belə ki,

Rusiya bir növ Qarabağ, Abxaziya və Cənubi Osetiya probleminin davam etməsindən faydalanır və onun başa çatmasına elə də böyük maraq göstərmirdi. Çünki bu üç böhran həllini tapdıqdan sonra Rusiya adı çəkilən ölkələrin heç birinə təzyiq göstərə bilməyəcək. Təbii ki, enerji kimi təzyiq vasitələrini də yaddan çıxarmamalıyıq. Lakin Qarabağda Azərbaycanın 2020-ci il 27 sentyabrdan -10 noyabra dək davam edən şanlı qələbəsi ilə tarixə düşmüş vəziyyəti Rusiyanı bir qədər çətin vəziyyətə salmışdır. Və rəsmi Moskva burada öz maraqlarını yalnızca sülhməramlılarının Qarabağ ərazisində saxlamaqla təmin etməkdədir.

*Cənubi Qafqaz regionu və Türkiyə.* Türkiyə Cənubi Qafqaz regionu ölkələri ilə tarixi əlaqələrlə bağlı olan bir ölkədir. XX əsrin birinci rübündən başlayaraq Türkiyənin Cənubi Qafqazla bağlı siyasəti dəyişməyə başladı. Bunun aşağıdakı səbəbləri var idi:

l. SSRİ-nin Türkiyə sərhədlərinə qədər gəlib çıxması;

2. SSRİ-nin tərkibində olan Cənubi Qafqaz regionunda Azərbaycan türklərinin yaşaması [8; 336].

Hələ 1933-cu ildə Türkiyə Cümhuriyyətinin 10 illiyi ilə bağlı söylədiyi nitqdə Mustafa Kamal Atatürk bu məsələyə toxunaraq, Sovet İttifaqı ilə dost münasibətlərin mövcud olmasına baxmayaraq onun tərkibində xeyli sayda türk millətinin yaşadığını, gələcəkdə hər hansı bir dəyişiklik baş verərsə (burada SSRİ-nin dağılması ehtimalı nəzərdə tutulur) Türkiyənin borcunun öz qardaşlarına himayədarlıq etmək və onlara hər cür köməkliyi göstərməkdən ibarət olduğunu qeyd etmişdir [14, s. 87].

Cənubi Qafqaz Türkiyə üçün 3 məqamdan əhəmiyyət daşıyır:

1. geosiyasi;
2. geo-strateji;
3. iqtisadi [13, s.17].

Regiona marağı olan, “köhnə” aktorlardan sayılan İran həm ərazi, həm tarixi faktorlara görə, həm də geosiyasi maraqlarına görə Cənubi Qafqaza bağlıdır.

Müstəqilliyimizin ilk vaxtlarından başlayaraq Azərbaycanla Türkiyə arasında siyasi və iqtisadi münasibətlər quruldu. Bu dövrdə Azərbaycanın xarici siyasətində Türkiyə meyli xüsusilə artıq dərəcədə diqqəti cəlb edirdi. 1992-1993-cu illər Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr daha çox birtərəfli xarakter daşıyırdı, Azərbaycandan Türkiyəyə mal axını müşahidə olunurdu. Cənubi Qafqaz dövlətləri müstəqilliklərinin ilk illərində bu müstəqilliklərinə zəmanət ola biləcək “böyük qardaş” axtarışında idilər. Azərbaycan da o dövrdə Türkiyənin timsalında böyük qardaş görürdü [8, s. 308].

Hazırki dövrdə Azərbaycanla Türkiyə həm qardaş ölkə, həm də strateji müttəfiqlərdir. Qarabağ müharibəsi və ondan sonrakı dövr ərzində Azərbaycanın ən çox dəstək aldığı dövlət də məhz Türkiyədir. Türkiyə Cənubi Qafqaz ölkələri üçün NATO üzvü olan, Avropaya inteqrasiya prosesinin ən yüksək pilləsində dayanan bir qonşu dövlətdir. Türkiyə Azərbaycan, Gürcüstan və Ermənistanın Avropaya çıxışıdır. Lakin burada Ermənistan istisna olunmalıdır. Çünki Rusiyanın Cənubi Qafqazdakı vilayəti adlandırılan Ermənistanın Türkiyənin əleyhinə yönəlmiş, uydurma soyqırım təbliğatı Ermənistanın regional inteqrasiya proseslərindən kənarda qoymuşdur. Məlum olduğu kimi, Ermənistan rəhbərliyi təkcə Azərbaycana deyil, həm də Türkiyəyə qarşı ərazi və soyqırım iddiaları ilə çıxış etməkdədir. Ərazisində qanuni şəkildə 60 min nəfərə yaxın, qeyri-qanuni şəkildə isə yüz min nəfərdən çox ermənilərin yaşadığı Türkiyəyə ərazi iddiaları ilə çıxış etmək isə bir növ özünə qəsd etməyə bərabərdir. Təsadüfi deyildi ki, İlham Əliyev Ermənistanın iddialarını qiymətləndirərkən qeyd etmişdi ki, “onlar reallıq hissini o dərəcədə itiriblər və ya illüziyalara qapanıblar ki, Türkiyəyə qarşı təcavüzkar niyyətlər bildirirlər ki, bu da ağılsızlıqdır” [19].

Azərbaycan və Türkiyə mətbuatı II Qarabağ müharibəsində qələbəni həm də Azərbaycan diplomatiyasının geosiyasi meydanda və informasiya müharibəsində böyük uğuru

kimi qiymətləndirərək 44 günlük müharibədən sonra 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli bəyənnaməyə əsasən Zəngəzurdan Naxçıvana koridorun açılmasını hadisə və proseslərin planlı şəkildə ardıcıllıqla idarə edildiyini deməyə imkan verirdi. "Xalq qəzeti"nin yazdığına görə 2021-ci il fevralın 25-də nəqliyyat sahəsinə aid daha bir mühüm sənəd – Anlaşma Memorandumu imzalandı ki, sənəd Qars-İqdır-Naxçıvan dəmir yolunun tikintisini və Naxçıvana 160 km uzunluğunda qaz kəmərinin çəkilməsini nəzərdə tuturdu. Prezident İ.Əliyev sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatında nəqliyyat sahəsində böyük nailiyyətlərimizin olduğunu vurğuladı və Qars–Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumunun imzalanmasının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdı: "Bu, xüsusi əhəmiyyət daşıyan məsələdir. Çünki Ermənistanın işğalçı siyasətinə görə, Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni mühasirə şəraitində yaşayır. Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir" [20]. Dəmir yolu və qaz kəmərinin reallaşmasından sonra Naxçıvanın həm İrandan, həm də Türkiyədən dəstək almaqla daha güclü bir vəziyyətə gələcəyi, Şimal-Cənub nəqliyyat dəhlizində açar nöqtəyə çevriləcəyi şübhəsizdir.

*Cənubi Qafqaz regionu və İran.* SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz siyasətində xüsusilə aktivləşən İran rəhbərliyi regional təhlükəsizlik sisteminə dair yeni formul (3+3), yəni Azərbaycan, Gürcüstan və Ermənistan+Rusiya, İran və Türkiyə formulunu irəli sürdü. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun müttəfiqi və Tehranın əsrlər boyu bölgədə rəqibi olan Türkiyə ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi. Türkiyə və İran Cənubi Qafqazda və Yaxın Şərqdə tarixən rəqabət aparan iki qonşu dövlətdir [1, s. 283].

Tədqiq olunan dövrdə İranın bölgədəki geo-strateji məqsədləri aşağıdakı kimi nəzərdə tutulur:

-kənar qüvvələrin (ABŞ və Avropa İttifaqı) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;

-regional problemləri yalnız məntəqədəki dövlətlərin birgə səylərilə həll etmək;

-Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;

-Qərb yönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyəyə çatdırmaq;

-geo-strateji maraqları İranla üst-üstə düşən regional ölkələrilə əməkdaşlığı daha da möhkəmləndirmək [2, s. 2].

İranın regiondakı geosiyasi duruma təsir göstərmək imkanı getdikcə azalır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşması, TANAP layihəsinin təməlinin atılması, bölgədə bütün layihələrin Qərbin dəstəyi ilə həyata keçirilməsi İranın regiondakı proseslərdən təcrid olunması ilə nəticələnib [9, s. 255].

İranın Azərbaycana dair geosiyasi maraqlarının digər tərəfini də qısa olaraq bu faktlarla nəzərə çatdırmaq olar: İran ərazisində 30 milyona yaxın etnik azərbaycanlının yaşadığı bir dövlət olaraq güclü və müstəqil Azərbaycanı özünə təhlükə hesab edir [15].

Bu gün İran regionda əhəmiyyətli təsirə malik bir dövlət olaraq qalır, ona görə də Azərbaycan balanslaşdırılmış siyasət yeridərək öz maraqlarını müdafiə etməyə çalışır. Baxmayaraq ki, bu siyasət qərbyönümlüdür (İranın bir növ təzyiqləri Azərbaycanı məhz qərbyönümlü siyasəti möhkəmləndirməyə vadar edir), region dövlətləri ilə də dinc, mehriban qonşuluq siyasəti həyata keçirmək Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

*Cənubi Qafqaz regionu və ABŞ.* ABŞ Qafqaz regionunu özünün strateji maraq dairəsi elan edərək regiondakı mövcudluğunu Rusiya federasiyasına onun öz geopolotik məkanında təzyiq kimi izah edir.

Beləliklə, bütövlükdə Qafqaz və həmçinin Azərbaycan Orta Şərqin böyük əhəmiyyət kəsb edən geosiyasi mərkəzlərindən biridir ki, onların ətrafında XXI əsrin əvvəlində formalaşmaqda olan yeni geosiyasi mərkəzlər arasında qızğın geosiyasi qarşıdurma başlanmaqdadır və Qərbin bu istiqamətdə əsas zərbə gücü kimi NATO çıxış edir.

Bu məqalədə dünyanın super gücü olan ABŞ və regionun güclü dövlətlərindən biri olan İranın Cənubi Qafqazda toqquşan maraqlarının nəzərdən keçirilməsi və bu kontekstdə Azərbaycanın həyata keçirtdiyi balanslaşdırılmış xarici siyasətin təhlil edilməsi məqsəd olaraq qoyulmuşdur. Ümumilikdə ABŞ-İran münasibətlərinə qısaca nəzər saldıqda görə bilərik ki, Soyuq Müharibə dövründə İran Sovet İttifaqına qarşı ABŞ-ın müttəfiqi idi. Amma İranda 1979-cu il inqilabından sonra, Ayətullah Xomeyninin hakimiyyəti dövründən başlayaraq anti-amerikan siyasət yeridilməyə başlamışdır. ABŞ diplomatları İran inqilabçıları tərəfindən girov götürüləndə bir çox müşahidəçilər düşünürdülər ki, bu simvolik akt bir neçə saat və ya bir neçə gün davam edəcək. Yalnız 444 gündən sonra 52 nəfər səfirlik nümayəndəsi azadlığa buraxılmışdır. Məhz həmin hadisə ilə əlaqədar 1980-ci ildə ABŞ ilə İran arasında diplomatik münasibətlər kəsilmiş və indiyə kimi də mövcud deyildir. İranda ABŞ-ın maraqlarını İsveçrə səfirliyi, İranın isə ABŞ-da maraqlarını Pakistan səfirliyi təmsil edir [17].

İlk olaraq ABŞ-ın regiondakı maraqlarına nəzər salaq. ABŞ-ın 1991-ci ilə qədər xüsusi “Qafqaz siyasəti” mövcud deyildi. Sovet İttifaqının dağılmasından sonra ABŞ Azərbaycan, Ermənistan və Gürcüstanla münasibətlər sistemi yaratmağa başladı. 1991-ci ilin sonuna qədər ABŞ keçmiş Sovet İttifaqına daxil olan bütün dövlətlərin, o cümlədən hər 3 Cənubi Qafqaz dövlətinin müstəqilliyini tanıdı. Gürcüstan və Ermənistanla qarşılıqlı münasibətlərdə həlledici faktor kimi dünyanın əksər dövlətinin xarici siyasət maraqlarının həyata keçirilməsində az önəm daşımayan din amilinin qeyd edilməsi zəruridir. Azərbaycanla münasibətlərə gəldikdə isə bu yalnız “neft faktoru”na əsaslanmır, eyni zamanda ölkənin yerləşməsi geosiyasi nöqtə hesab olunur. Cənubi Qafqaz regionun geoiqtisadi dəyərini şərtləndirən amil qismində onun yollar qovşağında yerləşməsini göstərmək olar. Hazırda region ABŞ-ın Əfqanıstan müharibəsinin uğurla davam etdirilməsi və sona çatdırılması üçün kommunikasiya xətlərinin inkişafı və ABŞ və NATO-nun mülki və hərbi təchizatı baxımından olduqca önəmlidir və bu durum Cənubi Qafqazın geosiyasi yerləşməsinin dəyərini daha da artırır. Eyni zamanda Azərbaycan üçün də ABŞ-la sıx əməkdaşlığı davam etdirmək mühümdür. ABŞ ilə münasibətlər Azərbaycanın xarici siyasətində ən aparıcı istiqamətlərdən biridir. Bu iki dövlət arasında normal münasibətləri və onların çoxtərəfli əməkdaşlığını şərtləndirən amillər yetərincədir. Baxmayaraq ki, “Azadlığa dəstək aktına 907-ci düzəliş”, səfir təyinatının gecikdirilməsi və bir sıra digər məsələr bu münasibətlərə bir qədər soyuqluq gətirmişdir, ümumilikdə bu münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən biri olan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi prosesində Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-a güvənir.

2011-ci ilin sentyabrında Vaşinqtonda keçirilmiş “Cənubi Qafqazda müstəqilliyin 20 illiyi: nailiyyətlər və sınaqlar” adlı konfransda Amerikanın Müdafiə Nazirliyinin Rusiya, Ukrayna və Avrasiya Məsələləri üzrə direktoru Jennifer Walsh Cənubi Qafqazın ABŞ-ın təhlükəsizliyi üçün niyə vacib olmasının 5 səbəbini belə qeyd etmişdir:

1. Cənubi Qafqazın coğrafi mövqeyi. İranla sərhədd olması. İrandan yayıla bilən təhlükə, o cümlədən nüvə materialları həm də Cənubi Qafqazdan keçə bilər.

2. Cənubi Qafqaz ABŞ-ın Əfqanıstandakı qoşunlara təchizatının şimal yoludur.

3. Cənubi Qafqaz Avropanın enerji təchizatında mühüm rol oynayır. Bu region həm enerji mənbəyidir, həm də Orta Asiyadan enerji dəhlizidir.

4. Cənubi Qafqaz regionunda sabitlik və münaqişələrin həlli ABŞ-ın təhlükəsizlik marağında olan məsələdir.

5. ABŞ Cənubi Qafqaza daha geniş mənada Avropanın bir hissəsi kimi baxır və region dövlətlərinin Avropa institutlarına qoşulmasında maraqlıdır [16].

Yuxarıda sadalananlardan aydın olur ki, Cənubi Qafqaz ABŞ-ın xarici siyasətində mühüm yer tutur və məhz İran məsələsinin birinci bənddə yer almasını isə ABŞ-ın regionda narahatlığının əsas səbəbinin göstəricisi kimi qiymətləndirə bilərik. Bu gün ABŞ-İran qarşıdurmasının əsas səbəblərindən biri İranın nüvə silahına yiyələnməsidir. Qərb nüvə proqramının icrasının qarşısını almaq üçün İrana qarşı bir sıra sanksiyalar tətbiq edir. Beynəlxalq müqavilələrə və qanunlara görə, İran uranı zənginləşdirə və nüvə proqramından sülh məqsədləri üçün istifadə edə bilər. Məhz bu prizmadan çıxış edərək İran uranın zənginləşdirilməsinin yasaqlanmasının hüquqi əsası olmadığını bildirir.

Son 25 ilin təcrübəsi onu da göstərir ki, nüvə silahına yiyələnən ölkələrin heç biri ilə belə kəskin mübarizə aparılmayıb və əsasən barış siyasəti yürüdülüb. Ancaq 11 sentyabr hadisəsindən sonra dünyanın super gücü olan ABŞ İran kimi ölkələrin əlində nüvə silahının olmasıyla heç bir zaman razılaşa bilməz və bu artıq siyasətdən daha çox, milli təhlükəsizlik məsələsinə çevrilib. Təkcə onu xatırladaq ki, İranın nüvə silahına yiyələnməsi Hizbullah, Həmas və digər terror təşkilatlarının nüvə silahına yiyələnməsi ilə eyniləşdirir, onda ABŞ-ın narahatlığını anlamaq çətin deyil [17].

*Nəticə*

Beləliklə, Cənubi Qafqaz və ümumilikdə bütov Qafqaz hər zaman böyük dövlətlərin geosiyasi maraq dairəsində mövcud olmuş və olacaqdır. Cənubi Qafqazda təhlükəsizlik və sabitliyin təmin edilə bilməməsindəki ən əhəmiyyətli səbəblərdən biri də, sadəcə bölgə dövlətlərinin deyil, böyük dövlətlərin özlərinə məxsus iqtisadi, hərbi və siyasi mənfəətlərinin təmin edilməsi istiqamətində təhlükəsizlik mexanizmləri qurmağa təşəbbüs göstərməlidir. Belə ki, Rusiya, ABŞ və Avropa İttifaqı (Aİ) bölgədə öz mənfəətlərinə uyğun gördükləri təhlükəsizlik sistemini qurmağa çalışırlar.

Gürcüstan açıq bir şəkildə NATO təhlükəsizlik sistemi ilə inteqrasiyaya, Azərbaycan NATO ilə münasibətlərini möhkəmləndirməyə və genişləndirməyə çalışsa da, Rusiyaya olan münasibətdə daha tarazlı siyasət həyata keçirməyə cəhd edir, Ermənistan isə birmənalı şəkildə Rusiyanın liderliyində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təhlükəsizlik sisteminə daxil olmuşdur. Ermənistan bununla belə, NATO ilə də münasibətlərini inkişaf etdirmək istəməkdədir[18]. Cənubi Qafqazda təhlükəsizliyinin təmin edilməsi üçün arayışlar davam edərkən, Azərbaycan və Gürcüstan bölgə və beynəlxalq sistem ilə siyasi və iqtisadi münasibətlərini daha da genişləndirməyə çalışır, Ermənistan isə siyasi və iqtisadi siyasətində Rusiyaya üstünlük verərək bu prosesdən kənarda qalır. Böyük dövlətlər bölgə siyasətində fərqli iqtisadi, siyasi, hərbi və mədəni dəyərlərini həyata keçirir.

ƏDƏBİYYAT

1. Abbasbəyli A. Dünya Siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvələri), Bakı: Nurlar, 2011, 584 s.
2. Aslanova K. Cənubi Qafqaz regionu dövlətlərinin demokratik inkişafı qarşısında duran əsas problemlər, Bakı Slavyan Universiteti nəşri, 2001, 4 s.
3. Azad Dovin Ə. Cənubi Qafqaz-regional və beynəlxalq oyunçular, //Tarix və onun problemləri jurnalı, № 3, 2012, 270 s.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, 187 s.
5. Cəfərli R. Enerji siyasətinin Azərbaycan modeli, /Azərbaycan qəzeti, 30 dekabr 2013.

6. Əliyev H. Müstəqilliyimiz Əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I-XXIV k. Bakı, 1997-2008, 512 s.
7. Əliyev İ. Azərbaycan Nefti Dünya Siyasətində. I-III k. Bakı, 1997-1998, 567 s.
8. Babaoğlu H. Dünya Siyasəti və Beynəlxaq Münasibətlər, Bakı: Çinar-Çap, 2010, 562 s.
9. Hüseynova İ. Heydər Əliyev və Qafqazda Sülh Prosesi. Bakı: Çaşıoğlu, 2008, 672 s.
10. Hüseynova İ. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu, Bakı: Təhsil, 2004, 472 s.
11. Hüseynova İ. Müstəqilliyimizin Təminatçısı, Bakı: Təhsil, 2003, 146-150.
12. Ruintən S. Azərbaycan Türk dövlətləri ilə siyasi əlaqələr sistemində. Bakı: Adiloğlu, 2005, 127 s.
13. Girgin K. 21.Yüzyıl Perspektifinde Dünya Siyaseti, Okumuş Adam Yayıncılık, İstanbul, 2002, 28 s.
14. Süleymanov E. Həsənov F. Azerbaycan'ın Türkiyenin Enerji Sektörüne Yatırımlarının Azerbaycan-Türkiye Ekonomik İlişkilerindeki Rolü, Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi 2(2): 073-100
15. İran-Azərbaycan münasibətlərində böhran. https://bakuresearchinstitute.org/crisis-in-azerbaijani-iranian-relations-2/. İstifadə olunma tarixi: 30.11.2022
16. Twenty Years of Independence in the South Caucasus: achievements and challenges. Sep 15, 2011. http://csis.org. İstifadə olunma tarixi: 30.11.2022
17. ABŞ və İranın Cənubi Qafqazda geosiyasi maraqları və Azərbaycan. https://huquq.org.az/az/publication/geopolitical-interests-of-the-u-s-and-iran-in-the-south-caucasus-and-azerbaijan/ İstifadə olunma tarixi: 30.11.2022
18. Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemləri.http://newtimes.az/az/politics/344/ İstifadə olunma tarixi: 30.11.2022
19. Azərbaycan-Türkiyə münasibətləri: danışıqlar və reallıqlar (təhlil) // http://www. Amerikanınsesi.org/a/azrbaycan-turkiy-munasibtlri-danqlar-v-reallqlar-thlil-126267948/723371.html. İstifadə olunma tarixi: 30.11.2022
20. Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır. https://xalqqazeti.com/az/news/ 42277. İstifadə olunma tarixi: 30.11.2022

УДК 479 (94)

*Т.И.Гасымова*
*Бакинский Государственный Университет*

# ЮЖНЫЙ КАВКАЗ В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКИХ, ГЕОЭКОНОМИЧЕСКИХ АСПЕКТОВ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Южный Кавказ, геополитика, Россия, Иран и Турция

Геополитическая роль Южного Кавказа имеет характерное значение, как по своему потенциалу, так и по геостратегическому положению. Расположение Каспийского и Черного морей, между Россией, Ираном и Турцией, делает Южно-Кавказский регион коридором Восток-Запад и Север-Юг. Этот фактор свидетельствует о том, что Каспийский регион, особенно Южный Кавказ, занимает важное положение на геополитической карте мира. В целом этот регион богат месторождениями всех видов драгоценных металлов и нефтегазов. Значение этого региона, богатого углеводородными ресурсами, еще больше возрастает, когда мировые потребности в

энергии меняются в зависимости от восходящей линии. Таким образом, участие в глобальных экономических проектах можно отнести к Азербайджану не как к одному из рядовых, а как к одному из основных ведущих государств. Потому что глобальные проекты по разработке углеводородных ресурсов региона, конечно, немыслимы без Азербайджана. Незаменимость Азербайджана связана не только с тем, что он является производителем, но и с тем, что он, как транзитная страна, является энергетическим, транзитным коридором, по которому в Европу поступает своя продукция и продукция среднеазиатских республик. Это понимают и западные государства. Как подчеркнул Президент Ильхам Алиев, Азербайджан уже является важным региональным фактором: фактором стабильности, безопасности и развития.

UDC 479 (94)

*T.I.Gasimova*
*Baku State University*

SOUTH CAUCASUS IN THE CONTEXT OF GEOPOLITICAL AND GEO-ECONOMIC ASPECTS

*SUMMARY*

*Key words:* South Caucasus, geopolitics, Russia, Iran and Turkey

The geopolitical role of the South Caucasus is of particular importance both for its potential and geostrategic position. The location of the Caspian and Black seas, between Russia, Iran and Turkey, makes the South Caucasus region an East-West and North-South Corridor. This factor shows that the Caspian region, especially the South Caucasus, has an important position on the geopolitical map of the world. In general, this region is rich in all types of precious metals and oil and gas deposits. When the world's need for energy changes along the rising lines, the importance of this region rich in hydrocarbon resources increases even more. Thus, participation in global economic projects can be attributed to Azerbaijan not as one of the ordinary, but as one of the main leading states. Because global projects related to the development of hydrocarbon resources in the region, of course, cannot be imagined without Azerbaijan. The indispensability of Azerbaijan is due not only to the fact that it is a producer, but also to the fact that as a transit country it is an energy and transit corridor that supplies its products and the products of the Central Asian republics to Europe. The Western countries also understand this. As President Ilham Aliyev stressed, Azerbaijan is already a major regional factor: stability, security and development.

***Daxil oldu: 17.01.2023-cü il***